

**İlham Rəhimli,**
*sənətşünaslıq doktoru,*
*professor*

# HAQQ VƏ HÜQUQ

*Peşəkar Azərbaycan teatrı 10 mart 1873-cü ildə Bakıda təşəkkül tapıb. Teatr sənəti 1886-cı ilə kimi ilkin həvəskarlıq mərhələsini keçib.*

1886-1900-cu illər inkişafın ikinci mərhələsi sayılır və bu dövrdə dəstələrin yaradılmasının bir növ zəmininə meydan açılıb.

1901-1905-ci illərdəki dövr truppaların formalaşması kimi səciyyəvidir. İlk "Müsəlman teatr dəstəsi" peşəkarlıq zəminində fəaliyyət prinsiplərinin sadə formalarını müəyyənləşdirib.

1906-1919-cu illərdə milli teatr prosesi təkamülə başlayıb. Daha məhsuldar işləmiş "Nicat" (1906-1917), "Səfa" (1912-1917), "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" (1916-1919) teatr truppaları səhnə sənətinin tərəqqisində misilsiz işlər görüblər.

1919-cu il oktyabr ayının 24-dən teatr institusional mədəniyyətin faktı kimi fəaliyyət göstərib. Bakıda ilk Hökumət Teatrı yaradılıb və bu qurum dövlət təsisatına verilib. 1920-ci il iyun ayının 1-də Xalq Komissarları Sovetinin qərarı ilə Bakıda teatr milliləşdirilib. Mövcud sənət ocaqları və illər uzunu yeni yaranan teatrlar dövlət müəssisəsi kimi çalışmağa başlayıb.

Lakin nə həvəskarlıq dövründə, nə truppaların tərəqqiyə çatdığı zamanlarda, nə də sistemli şəkildə fəaliyyət göstərdiyi 97 ildə teatra aid Qanun olmayıb. Sovetlər dövründə və müstəqillik qazandığımız son on beş ildə teatrların fəaliyyəti yuxarıdan inzibati göstərişlərlə, fərman və sərəncamlarla, müxtəlif xarakterli qərarlarla tənzimlənib. Azərbaycanın bütün sahələrdə dünyaviliyə qoşulduğu, bu istiqamətdə dövlətimizin uğurlu addımlar atdığı bir zamanda teatr sənəti barədə "Qanun"un Milli Məclisə çıxarılması və ilk oxunuşdan bir sənəd kimi bəyənilib daha əsaslı işlənməsi üçün qəbul olunması *(jurnalımız çapa imzalanarkən Qanun layihəsi əvvəlcə fəsillər üzrə, sonra ikinci oxunuşda qəbul edildi - **Red.**)*, mənim fikrimcə, milli mədəniyyətimizdə böyük hadisədir.

Nəhayət, bu böyük mədəni-mənəvi hadisənin hüquqi təsdiqi prosesi başlandı.

Nəhayət, mənəviyyata xidmət göstərmək haqqı hüquqi çərçivəyə salınacaq. Çünki təşəkkül tapdığı gündən indiyədək bu mənəviyyat sahəsi hüquq məkanından kənarda idi. İstənilən tamaşa istənilən vaxt bağlana bilərdi, "yuxarıların" göstərişləri ilə tamaşa təxirə salınardı. Hətta çar Rusiyası dövründə hansısa əsərin səhnədə oynanılmasına Tiflis canişinliyindən möhürlü icazə lazım idi. Azərbaycan teatr truppasının afişasını əcnəbi afişasından yuxarıda asılmasına görə həm inzibati, həm də hüquqi cəza verirdilər.

Nəhayət, Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan teatr sənətinin hüquqi təsdiqi prosesinə başlanıldı.

Nəhayət, bu Qanunla istedadların özlərinə və onların bədii yaradıcılıq məhsullarına hüquqi təminat veriləcək. "Dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən teatr fəaliyyətinə himayədarlığın məzmunu, forması və üsulları qanunvericiliklə müəyyən edilir" (*Maddə 11, bənd 1*).

Nəhayət, teatr sənəti ilk dəfə qanuni proseduraya cəlb olundu. "Bu qanun təşkilati-hüquqi və mülkiyyət fomasından asılı olmayaraq, fəaliyyət göstərən və yeni yaradılan bütün teatrlara, teatr müəssisələrinə şamil edilir" (*Maddə 2, bənd 1*).

Nəhayət, teatr və teatr xadimləri həm iqtisadi, həm də təşkilati sahələrdə hüquqi aktlar əsasında işləyə biləcəklər. "Teatr öz fəaliyyətini müstəqil şəkildə planlaşdırır və əsasnaməsində nəzərdə tutulan məqsədləri, yaradıcı və təsərrüfat ehtiyatlarını, istehsalat və sosial inkişaf zərurətini nəzərə alaraq öz inkişaf perspektivlərini müəyyən edir" (*Maddə 7, bənd 1*).



## "Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu" ilə bağlı sevincli düşüncələr

Nəhayət, Qanun quruluşçuların və ifaçıların teatr tamaşası ilə bağlı hüquqlarını tənzimləyəcək, onlara kənar müdaxilənin qarşısını alacaq. "Quruluşçu teatr tamaşasını təhriflərdən qorumaq hüquqlarına malikdir. Quruluşçudan xəbərsiz və icazəsiz rol (partiya) ifaçılarının tərkibinin, səhnə mizanlarının, xoreoqrafiyanın, işıq partiturasının, teatr əlbəsələrinin, artistlərin istifadə etdikləri aksesuarların, musiqisinin dəyişdirilməsi təhrif hesab olunur" (*Maddə 15, bənd 2*).

Nəhayət, teatr xadimlərinin sosial müdafiələrini "Qanun" hüquqi prinsiplərlə müəyyənləşdirəcək. Hər cür xırda məsələlər isə "Qanun"dan doğacaq aktlarla həll olunacaq. Bu Qanunla yaradıcı teatr işçilərinin pensiya təminatının xüsusiyyətləri və sosial müdafiəsi üçün əlavə tədbirlər müəyyənləşdiriləcək. "Dövlət və yerli özünüidarəetmə orqanları yaradıcı teatr işçiləri üçün müvafiq büdcə vəsaitləri və qanunvericilikdə qadağan olunmamış digər mənbələr hesabına dövlət pensiyalarına əlavələr, ömürlük aylıq əlavə maddi təminatlar və digər sosial müdafiə növlərini nəzərdə tuta bilər" (*Maddə 28, bənd 2*).

Sual oluna bilər ki, nə üçün bu proses məhz indi başlayıb. Haqlı da sualdır. Lakin onun qəti cavabı da var. Cəmiyyətimizdə sabitlikdir, Dövlətdə sabitlikdir. Deməli, mənəviyyat varlığımızın bir qolu olan teatr sənəti barədə Qanunu Milli Məclisə çıxarmağın əsil vaxtıdır.

Mənim üçün önəmli olanı bir də budur ki, Qanunun Milli Məclisin müzakirəsinə çıxarılması Mədəniyyət və Turizm Nazirliyinin yaradılması və onun yeni komandasının formalaşdırıldığı bir dövrlə üst-üstə düşdü. Məhz yeni nazirlik yeni də iş metodları ilə və dövlət Qanunu ilə teatr sənətinin tərəqqisinə çalışacaq.

Təbii ki, Qanun indiki prosesdə kimlərisə razı salmaya bilər, hansısa məsələlər mübahisəli görünə bilər. Əsas məsələ isə odur ki, teatr "Qanun"unu daha işlək mexanizmdə təkmilləşdirmək prosesi başlandı.

Bu Qanunla dövlət sənət ocaqlarının ələbaxımlığını kəsəcək. Dünya təcrübəsi göstərir ki, Dövlət hər cür "imkanlı adamların" ümidlərinə qalanda hər şey korlanır. Geniş mənada isə mədəniyyət "imkanlı adamların" primitiv zövqlərinin diktəsinə düşür. Qanunla teatrlar ələbaxımlıqdan azad olur. "Teatr dövlət qayğısını" təsbit edir (*Maddə, bənd 1, bölüm 4*).

Bu Qanun "istedadın milli sərvət kimi tanınması və onun gerçəkləşməsi üçün şəraitin yaradılmasına" təminat verir (*Maddə 4, bənd 1, bölüm 2*).

Bu Qanun teatr işçilərinin əmək şəraiti və onların əməyinin mühafizəsi qeydinə qalmağın hüquqi əsaslarını müəyyənləşdirəcək (*Maddə 27*).

Bu Qanunla teatrların beynəlxalq və xarici iqtisadi əlaqələri hüquqi qaydada möhkəmlənəcək (*Maddə 29*).

Qanun təsdiq olunandan sonra teatr sənəti son dərəcə səmərəli fəaliyyət strukturuna malik olacaq: dövlətçilik - demokratiya - hüquq -yaradıcılıq.

Qanun milli peşəkar dövlət və bələdiyyə teatrlarında işlək yaradıcılıq, fəaliyyət sistemi formalaşdıracaq.

Azərbaycan teatrı bu gün müəyyən inkişaf mərhələsindədir. Təbii ki, bu prosesdə durğunluq və yüksəliş, uğur və uğursuzluq, bədii konseptual düşüncənin aydın ifadəsi və müəmmalı, qaranlıq təqdimi kimi təzadlar mövcuddur. Lakin teatr sənəti barədə işlək hüquqi sistemliliyin yoxluğu ciddi çatışmazlıqdır. Qanun ilk növbədə bu boşluğu dolduracaq, onun səmərəli fəaliyyətini tənzimləyəcək və inkişafının hüquqi prinsiplərini təminatlandıracaq.

Məlum məsələdir ki, hər hansı qanun (Konstitusiya istisna olunmaqla) müəyyən dövrün tələb və prinsiplərini özündə ehtiva edir. Lazım gələndə əlavə dəyişikliklərə açıq qalır. Məncə, Qanun keçid dövrü üçün son dərəcə səmərəli, teatr sənətinin inkişafı üçün çevik və güclü tənzimləmə mexanizmi yaratmağa qadir bir hüquqi sənəddir.

Cəmiyyətimiz bir neçə ildir bazar iqtisadiyyatının sərt tələbləri ilə idarə olunur və müxtəlif

çətinliklərlə üzləşsə də, burulğanlara düşsə də, inamla inkişaf edir. Bazar iqtisadiyyatının prinsipləri və mexanizmləri teatr sahəsində də formalaşdırılmalıdır. Əminəm ki, buna hər cür imkanlar açan Qanun teatr sənətinin fəaliyyətində də tezliklə və prinsipial şəkildə işlək sistem formalaşdıracaq.

Bütün bunlar öz yerində. Ancaq Qanunla bağlı mənim müəyyən təklif və fikirlərim var ki, onları diqqətə çatdırmaq istəyərdim.

Azərbaycanda milli oyun mədəniyyətinin kökləri bizim eradan əvvəllərə gedib çıxır. Mərasim oyun-tamaşaları, kütləvi etno-mədəni oyunlar, əyləncəli səhnə oyun-tamaşaları əsrlər boyu formalaşaraq günümüzə gəlib çıxmışdır. "Yuğ", "Qaravəlli", "Yel baba", "Cütçü şumu", "Qodu-qodu", "Kosa-kosa", "Kəvsəc", "Güdul" və onlarca bu kimi oyunlar milli sərvətimizdir. "Şəbih" teatr estetikası dünya xalqlarının misteriya oyunları içərisində son dərəcə seçilən mədəni faktdır. Bunlar hamısı geniş anlamda Azərbaycan meydan teatrının tərkib hissələridir. Təkcə iyirminci əsrdə Rusiyada Yevgeni Vaxtanqov və Vsevolod Meyerhold, Almaniyada Bertolt Brext, Polşada Eji Qrotevski, İngiltərədə Piter Bruk Şərq və o cümlədən, Azərbaycan milli teatr mədəniyyətinin poetika göstəricilərinə əsaslanaraq özlərinin orijinal sənət konsepsiyalarını, yeni teatr estetikalarını yaradıblar. Cəsarətlə yaradıblar və qətiyyətlə, inamla onu formalaşdırıblar. Lakin nədənsə Qanunda bu milli sərvətimizin qorunması və inkişafı üçün hüquqi akt yoxdur.

Qanunun 4-cü maddəsi "Teatr və teatr fəaliyyəti sahəsində dövlət siyasəstinin əsas prinsipləri" adlanır. Mənim fikrimcə, bu ifadənin məna tutumu və fikir yükü "Qanun"un preambulasında özünün konkret və ifadəli təcəssümünü tapmalıdır. Belə olarsa, dördüncü maddədəki qaranlıq və anlaşılmaz müddəalar daha da aydınlaşar və daha da dolğunlaşar.

Azərbaycan teatr sənəti dünya mədəniyyətinin tərkib hissəsidir, ümumbəşəri, dünyəvi xarakter daşıyır. Bununla belə, onun özəllikləri və sırf milli səciyyələri də vardır. İstərdim ki, həmin özəlliklərin qorunub hifz olunmasının hüquqi prinsipləri də Qanunda özünün real ifadəsini tapsın.

Bütün dünyaya bəllidir ki, Azərbaycanın müəyyən bir tarixi dövründəki mövcud milli mədəniyyətimiz və yeni yaranan sənət növləri geniş mənada məhz İslam mədəniyyətinin tərkib hissəsi kimi formalaşıb. Bunun da özəllikləri və estetik səciyyələri vardır. Yaxşı olardı ki, teatr sənətinin İslam mədəniyyəti ilə bağlı bəzi incə məqamlarının hüquqi əsasları da Qanunda özünün əksini tapsın.

Teatr xadimlərinin maddi təminatı, teatr müəssisələrinin maliyyə xərcləri, sənət ocaqlarının repertuar siyasəti kimi məsələlərə Qanunun ilk oxunuşunda millət vəkilləri öz münasibətlərini bildirdilər. Mətbuatda da həmin məsələlərə müxtəlif nəzər nöqtələri vardır. Hətta haçalı və təzadlı, müəmmalı və mübahisəli qənaətlər irəli sürülür, neçə-neçə suala cavab aranır. Daha çox da maaşların artıb-artmayacağı barədə söhbətlər gedir. Gəlin unutmayaq və əminlikilə bildirək ki, Qanun qəbul olunandan və hüquqi sənəd kimi qüvvəyə minəndən sonra Mədəniyyət və Turizm Nazirliyi hüquqi sənədə söykənən lazımi əsasnamələr hazırlayacaq. Mətbuatın hallandırdığı əksər məsələlərin həlli məhz həmin əsasnamələrlə tənzimlənəcək və özünün qanuni həllini tapacaq.

Yeni yaranmış Mədəniyyət və Turizm Nazirliyinin rəhbəri Əbülfəs Qarayev televiziya vasitəsi ilə özünün və komandasının fundamental konsepsiyasını, fəaliyyət modellərinin əsas prinsiplərini, məram və məqsədini açıqlayıb. Etiraf edim ki, bir dövlət məmuru kimi onun mövqeyi qətidir, yəqin respublikamızın dünyəvi dövlətə çevrilmək uğrunda məqsədyönlü mübarizə siyasətinin tərkib hissəsidir. Digər tərəfdən, bu məramın dolğunluğu, bu məqsədin milli mədəniyyətimizin və o cümlədən teatr sənətinin hüquqi aktlarla inkişafına zəmin yaratmağa yönəldiyindən, son dərəcə işıqlı görünür. Ən əsası isə odur ki, bu komandanın çevik, səmərəli, məhsuldar işləməsi üçün konkret modeli vardır.

*Bütün bunlara əsaslanaraq inamla söyləyə bilərik ki, nəhayət, Azərbaycan Respublikasında teatr sənətinin inkişafı üçün Haqq və Hüququn qüvvəyə minəcəyi günün reallaşacağına çox qalmayıb.*

*Əminəm ki, sənəd təsdiq edilərkən layihənin müzakirəsi zamanı irəli sürülmüş bütün əlavə və təkliflər nəzərə alınacaqdır...*